

Şirxan
Aranlı

## Gözəlliyə güvənməyin, a qızlar

Gözəlliklə qürrələnmə gözəl qız,
Gözəlliyin göz dağı olar, yanarsan.
Çox öyünüb, gendə dolanma yalqız,
Dağın çəksən gözəlliyi danarsan.

Namərd ələ düşüb, tez qoxlanarsan,
Atılarsan çiçək kimi, gül kimi,
Vəfasız əli ilə çox oxlanarsan,
Qorlanarsan ocaq kimi, kül kimi.

Çox güvənmə gözəlliyin çətrinə,
Gül ömrünün tez solması yamandı,
Bir söz deyim, qoy dəyməsin xətrinə,
Camalına gəl aldanma, amandı.

Hanı sənin söylə ağıl, kamalın,
Ötəridi gözəlliyin qisməti,
Tanrı sənə bəxş etdiyi camalın,
Kamal ilə başa yetir hörməti.

Gözəllik qızların başının tacı,
Bəzən də başının bəlası olur,
Bir ömür yaşadır zəhərdən acı,
Bahar çiçəyi tək tezcə də solur.

Yaxşı qoru qız adının qədrini,
Həya hissi yanağında alışsın,
Bir çiçəksən, hər kəs duymaz ətrini,
Gözəlliyin ismətinlə qarışsın.

Zər qədrini zərgər bilər ay gözəl,
Ürəyinin zərgərini ara sən,
Bahar ömrü vaxtsız etmə gəl xəzəl,
Yaxşı düşün, ömrü etmə qara sən.

Çox analar yaxşı deyib bu sözü,
Gözəl qızım, gözəl bəxtlə yarısın.
Ömrünün dayağı, qəlbinin közü
Öz yarı ilə qoşa qarısın.

Gəl, unutma, anaların sözünü,
Hədər vurma gəncliyini sən başa,
Elə axtar, elə qoru özünü,
Peşman olub başın dəyməsin daşa.

Həyat yolu bəzən çəndi, dumandı,
Çalış burda azmayasan yolunu,
Hər işığa nur söyləmə amandı,
İtirərsən həm sağını, solunu.

Gəl aldanma nə dövlətə, nə vara,
Hər yetənə ürəyini bağlama,
Aldanışın qəlbinə vursa yara,
Faydasızdı əbəs yerə ağlama.

Gözəlliyin bilki budur xisləti,
Qorumasan vaxtsız düşən xəzəldi,
Gözəlliyin kamal ilə zinəti,
Gözəlliyin gözəlidi, əzəldi.

Gözəlliklə qürrələnmə gözəl qız,
Gözəlliyin göz dağı olar, yanarsan,
Çox öyünüb, gendə dolanma yalqız,
Dağın çəksən gözəlliyi danarsan.

## Bəzi oğlanlara

Gözəllər tez aldanır,
Aldatmayın onları
Şirin dona bürünən,
Yalan dolu söz ilə
Çatmayın sonaları.

Axı onlar gözəldi,
Müqəddəsdi, əzəldi,
Hər şeyə tez inanır,
İnandısa aldanır.

Bu inamdan yapışıb,
Onları azdırmayın.
Yağlı vədləri verib,
Başlarını qatmayın.

Bu gözəllər yurdumun,
Gözəllik sonasıdı.
Unutmayın ki, onlar
Sabahın anasıdı.

Tanrı versin onların,
Qoşa ömür payını.
Xoş günlərlə yarısın,
Sevdiyi qismətilə -
Ömrü qoşa qarısın!

## Vallah yoxdur beləsi

**(Azərbaycan Respublikasının xalq artisti, gözəl nəğməkar Şahnaz xanıma ithaf edirəm)**

Sənətkarın qəlb ovutmaq həvəsi,
Hər bir kəsin öz avazı, nəfəsi,
Nəğməkarın ruhu açan nəğməsi
Bir ünvan var, Şahnaz xanım zirvəsi
Bənzəri yox, vallah yoxdur beləsi!

Dinlə onun "Dərələr"in, "Küləy"in,
"Göy gölünü", "Lalə"sin, "Ağ çiçəy"in,
Sehrinə dal, bu nəğməkar mələyin
Bal şəkərdi hər sözü, hər bəstəsi,
Bənzəri yox, vallah yoxdur beləsi!

Şövkətimin duyğusu var bu səsdə,
Rübabənin ağısı var bu səsdə,
Qarabağın yanğısı var bu səsdə,
Hər avazı nəğmələrin qönçəsi,
Bənzəri yox, vallah yoxdur beləsi!

Musiqimin ustadı Şahnazısan,
"Şikəstəsi", "Dilkəşi", "Şahnazı"san
Ruhu alan sənətkar, - Şahnazı san,
Bir-birindən gözəldi zil-bəm səsi,
Bənzəri yox, vallah yoxdu beləsi!

Ay Gəncəmin ər qeyrətli gözəli,
Yurda bağlı sədaqətli gözəli
Sənətində bu torpağın əzəli, -
Şirin səsi Kəpəz dağın nəfəsi,
Bənzəri yox, vallah yoxdur beləsi!

## Son məkan

Qəbristanlıq...
İnsanların son mənzili,
son məkanı.
Uyuyanlar baş-başadır,
Bu məkanda baş olanın
O, məkanda başdaşı da
tamaşadır.
Bu dünyanın torpağından
Top dağıtmaz bol varından
doymayanlar,
O, dünyanın torpağında
zəbt eləyib.
Can üstündə, can verəndə
Əzizlərə son sözünü
deyib gedib.
O, sözlərdə məzargahın
ətrafını möhürlədib.
Yer saxladıb öz yanında
əzizinə, gilanına.
Bu dünyada qalanına,
Anla bunu, qafil insan,
Bu dünyada topladığın
Sərvətindən, dövlətindən
Yarınmadın o dünyada.
Göz dağı oldu sənə o da!
Son məqamda bir ağ kəfən,
Bir də quru məzar oldu
son qismətin
Anla, budu aqibətin,
Anla, budu aqibətin!